

Rafiq ODAY

## AY AĞA QURBAN

Dedin, adın kimi ağayanasan,
Çağırdın, ay ağa, ay ağa qurban.
Mən də başım üstə qurdum taxtını,
Düşmə gəl ayağa, ay ağa qurban.

Düşsən, yem olarsan qurda-quşa sən,
Saçımdan bir yuva qur da quşa sən.
Sığınma yalavac qurd ağuşa sən,
Tez bükər ay ağa, ay ağa qurban.

Əllərin yalmana sinə sinəmdə,
Nə olar uyusaq sinə sinəmdə,
Hicrindən aşiqin sinəsi nəmdə,
Buludtək ay yağa, ay ağa qurban.

Sənin şikarınam, ovunam, gözəl,
Umac istəyirdin, ov, unam, gözəl,
Çıxmasam, çətin ki, ovunam gözəl,
Qaradan ay ağa, ay ağa qurban.

Səninlə bu eşqi illər boyatmaz,
Sənsiz qısır qalar sevgim, boy atmaz,
Bu zülmət könlümü nura boyatmaz,
Göydən lap Ay yağa, ay ağa qurban.

Sənin aşiqindi o da, sına bax,
Qoyma ki, sevgidən o da sına, bax...
Od düşüb Odayın odasına, bax
Əriyən a yağa, ay ağa qurban.

## QALMAZ

Əkinin qaydası budu - əzəl dən,
Payıza saxlama, çıxar əz əldən.
Bölgünü biz belə gördük əzəldən, -
Qara toxa düşməz, ağ aca qalmaz.

Söz dedim qulağa - davası gedir,
Qoyulub Qu* lağa - davası gedir.
Hər yerdə qul-ağa davası gedir,
Gün gələr ağalar ağaca qalmaz.

Məclisə bəzəkdi mey və sini də,
Nə gözəl görünür meyvə sinidə.
Özünə saxlamaz meyvəsini də,
Nə də ki, kölgəsi ağaca qalmaz.

Hər oxu olanın bir dövr anı var,
Bir dövr yaşamaq var, bir dövr anı* var.
Hər açan çiçəyin bir dövranı var, -
İstər qara aça, ağ aça - qalmaz!

Qu* - Qu quşu
anı* - xatirə

## GÜLNAR A GÜLDÜ...

Elə pak, elə saf ürəyi var ki,
Tikan da, qanqal da Gülnara güldü.
Sanki bu dünyanın adamı deyil,
Güllər də baxışıb Gülnara güldü.

Hansı gül söyləməz güləm mən qəşəng, -
Təbiət qoynundan gül əmmən qəşəng!
Nar dərəm, sevinəm-güləm mən qəşəng,
Nar gülə güldüsə, gül nara güldü.

Deyincə: sevgisiz yaşa, sın, gözəl, -
Məni quru yuyub, yaş asın, gözəl,
Rəhm eylə Odaya, yaşasın, gözəl, -
Mənim bu sözümə Gülnar a güldü...

## QURAN DAN GÖZƏL

Tənhalıq ürəyə yara salandı,
Dəmir çıraq geydi, yar əsalandı.
Zülməti sevənlər yarasalandı, -
Könüldə min büsat quran dan gözəl.

Ruzi-bərəkəti düz əldən istə,
Zəhməti yan-yana düz, əldən istə.
Sınıq ürəkləri düzəldən istə,
Bir insan varmıdır qurandan gözəl?!

Yetər, atam oğlu, oyat yaddaşı,
Bir olsaq, neyləyər bizə yad daşı?
Nə dost gəz, çiynində nə də yad daşı, -
Dost tapmaq mümkünmü "Quran"dan gözəl?!